

Ölkə başçısı həkimləri Cümhuriyyət medalı ilə təltif etdi

2



Dərman qutusuna və odsöndürənə dair tələblər təsdiq edilib

2



Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib

2

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 17-18 (681) 30 sentyabr 2019-cu il Qəzet 1991-ci ildən nəşr olunur www.tibbqazeti.az

## Bakıda Avrasiya cərrah və qastroenteroloqlarının XVIII Beynəlxalq konqresi



3

## Bakıda Beynəlxalq Pediatriya Assosiasiyasının 17-ci Avrasiya Konqresi və Türk Dünyası Pediatriya Konqresi keçirilib




4

## Ölkəmiz malyariyanın eliminasiyasının sertifikatlaşdırılması üçün ÜST-yə müraciət edib



4




## Bilik Günü qeyd olundu



5

### Афоризм

*Между разумом и рассудком такая же разница, как между книгой кулинарных рецептов и пирогом.*

*Л.Берне.*

# Həkimlər Cümhuriyyət medalı ilə təltif olundular

**Prezident İlham Əliyevin Sərəncamı ilə «Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)» yubiley medalı ilə təltif olunanlar arasında həkimlər də var.**

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) əməkdaşları - İnstitutun Mikrobiologiya və epidemiologiya kafedrasının professoru, Əməkdar elm xadimi Fərxəndə Sadıxova və Hematologiya kafedrasının müdiri, dosent, Əməkdar müəllim Elmira Qədimova da həmin medala layiq görülüblər.

Professor Fərxəndə Sadıxova poliomielit üzrə qlobal proqramın iştirakçısı kimi Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən qızıl medalla təltif edilib. O, poliovirusların təbii ştamlarının yayılmasının qarşısının alınması üzrə milli əlaqələndirici, Taun Əleyhinə Stansiyanın Virusoloji laboratoriyasının rəhbər-məsləhətçisidir.

1990-cı ildən ADHTİ-də kafedra müdiri vəzifəsində çalışan Elmira Qədimova həm də Elmi-Praktik Hemofiliya Mərkəzinin rəhbəridir. O, 20-dən çox xarici ölkədə hematologiya və transfuziologiya sahəsi üzrə elmi konfrans və simpoziumlarda ölkəmizi layiqincə təmsil edib.

Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının məsləhətçi professoru, Əməkdar elm xadimi, tibb elmləri doktoru Rafiq Əsgərov da 65 il ərzində tibb kadrlarının hazırlanmasında göstərdiyi yüksək xidmətlərə görə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən «Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)» yubiley medalı ilə təltif olunub.

Medal professor Rafiq Əsgərova kafedranın müdiri, professor Vaqif Şadlinski və universitetin Stomatologiya fakültəsinin dekanı, dosent Səid Əhmədov tərəfindən təqdim edilib.

# Əczaçıların I respublika konfransı keçirilib

**2009-cu il sentyabrın 25-də İstanbulda Beynəlxalq Əczaçılar Federasiyası tərəfindən Beynəlxalq Əczaçılar Günü təsis edilib. Bu il həmin gün «Hər kəs üçün təhlükəsiz və effektiv dərmanlar!» şüarı altında keçirilib.**



Bu barədə Beynəlxalq Əczaçılar Günündə «Əczaçılar klubu» İctimai Birliyinin təşkilatçılığı ilə baş tutan Əczaçıların birinci respublika konfransında qurumun İdarə Heyətinin sədri Şövqi Bünyadov öz çıxışında danışıb. O, «Əczaçılar klubu»nun yaranma səbəbləri, fəaliyyət istiqamətləri barədə məlumat verib, təşkilatın əsas vəzifəsinin əczaçılara öz işlərini vicdanla, ləyaqətlə yerinə yetirmək üçün yardım göstərməkdən, onların hüquqlarını və maraqlarını müdafiə etməkdən, səhiyyə işçiləri və xəstələr arasında bir növ filtr rolu oynamaqdan ibarət olduğunu deyib. Qeyd edilib ki, bu sahədə əczaçılardan bilik, səbir, psixoloji yanaşma bacarığı, istehlakçının marağını hər şeydən üstün tutmaq və, ən başlıcası, vicdan tələb olunur.

Konfransda «Server-Azərbaycan» Məhdud Məsuliyyətli Cəmiyyətinin regional meneceri Rişad Təhməzov öz çıxışında İctimai Birliyin fəaliyyətini genişləndirməsi zəruriliyindən danışıb.

Azərbaycan Tibb Universitetinin Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva ölkəmizdə əczaçılıq sənayesinin keçdiyi inkişaf yolu, bu sahədə olan mövcud vəziyyət, həllini gözləyən problemlərdən bəhs edib.

Azərbaycanda fəaliyyət göstərən əczaçılıq müəssisələrinin rəhbərləri Rəhim Babayev, Müşviq Hüseynov və başqaları, eləcə də əczaçı-provizorlar çıxış edərək, əczaçılıq sahəsinin inkişafı ilə əlaqədar öz fikir və təkliflərini bildiriblər.

# Dərman qutusuna və odsöndürənə dair tələblər təsdiq edilib

**Baş Nazir Novruz Məmmədov «Dərman qutusunun tərkibinə və odsöndürənə dair tələblər, habelə onlardan istifadə təlimatı»nın təsdiq edilməsi haqqında Qərar imzalayıb.**

Qərarın qəbul edilməsində məqsəd «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli Qanununun tətbiqi və «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 17 aprel tarixli Fərmanının 1.3-cü bəndinin icrasını təmin etməkdir.

Qərarda qeyd olunub ki, «Dərman qutusunun tərkibinə və odsöndürənə dair tələblər, habelə onlardan istifadə təlimatı» «Yol hərəkəti haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq və beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb. Sənəd nəqliyyat vasitələrində (minik və yük avtomobillərində, avtobusda, təkərli traktorda, yanqoşqulu motosikletdə, habelə tramvay və trolleybusda) olan dərman qutusunun tərkibinə və odsöndürənə dair tələbləri, habelə onlardan istifadə təlimatını müəyyən edir.

# Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib

**Milli Məclisin Səhiyyə komitəsinin payız sessiyasında ilk iclası keçirilib.**

Sessiyanın başlaması münasibətilə deputatları təbrik edən komitənin sədri Əhliman Əmiraslanov Azərbaycanda səhiyyə sahəsinin inkişafına göstərilən dövlət qayğısından, Prezident İlham Əliyevin imzaladığı sərəncamlardan, Birinci vitse-prezident Mehriban Əliyevanın səhiyyəyə göstərdiyi diqqətdən söz açıb.



Sonra parlamentin 2019-cu il yaz və növbədənkənar sessiyalarında komitədə görülmüş işlərin hesabatı dinlənilib. Qeyd olunub ki, yaz və növbədənkənar sessiyalar zamanı Səhiyyə komitəsində 7 iclas keçirilib, 14 məsələ müzakirə olunub, onlardan 6-sı qanun layihəsi olub. Mühüm əhəmiyyət daşıyan həmin qanun layihələri parlamentdə qəbul edilib.

Bildirilib ki, hesabat dövründə Səhiyyə komitəsinə daxil olan 300-ə yaxın ərizə və şikayətin əksəriyyəti müalicənin maliyyə təminatı ilə əlaqədar olub. Müraciətlərə həssaslıqla yanaşılıb, imkan daxilində köməklik edilib. Aidiyyəti üzrə tədbir görülməsi üçün müxtəlif ünvanlara 230 məktub göndərilib. Sessiyalar müddətində komitə sədri 67 vətəndaşı qəbul edib, seçicilərlə çoxsaylı görüşlər keçirib. Komitə üzvləri qanun yaradıcılığında fəallıq göstərdikləri kimi, beynəlxalq əlaqələrimizin genişlənməsində, xarici ölkələrdə keçirilən tədbirlərdə Azərbaycanın təmsil olunmasında yaxından iştirak ediblər.

İclasda Səhiyyə komitəsinin 2019-cu ilin payız sessiyası üçün iş planından bəhs edən Əhliman Əmiraslanov bildirib ki, Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edəcəyi qanun layihələri ilə yanaşı, komitədə hazırlanmış «İnsan orqanlarının donorluğu və transplantasiyası haqqında» qanun layihəsi də müzakirəyə çıxarılacaq. Həmçinin «Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında» qanun layihəsinin təkmilləşdirilməsinə, ölkəmizdə gələn il yanvarın 1-dən etibarən icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar normativ hüquqi aktlara dəyişikliklərin edilməsinə, «Onkoloji xəstələrə tibbi yardımın vəziyyəti və perspektivləri»nə həsr olunmuş dinləmələr keçiriləcək.

Müzakirələr zamanı komitə sədrinin müavini Musa Quliyev, deputatlar Qənirə Paşayeva, İlham Məmmədov, Kamaləddin Qafarov, Kamilə Əliyeva ötən sessiyalarda görülmüş işləri təqdirəlayiq hesab edib, səhiyyənin vacib problemlərini önə çəkərək bir sıra təkliflər irəli sürüblər. Sonra parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adilə Abasova görülmüş işlər barədə fikirlərini bölüşüb.

Fikir mübadiləsinin yekununda hesabat məqbul sayılıb, iş planı qəbul olunub.

Komitədə ikinci oxunuşda müzakirəyə çıxarılmış «Uşaq hüquqları haqqında», «Narkoloji xidmət və nəzarət haqqında», «Gənclər siyasəti haqqında», «Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında», «İnsan alverinə qarşı mübarizə haqqında», «Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında» və «Təhsil haqqında» qanunlarda dəyişiklik edilməsi barədə, eləcə də «Məişət zorakılığının qarşısının alınması haqqında», «Sosial xidmət haqqında», «Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında», «Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında» və «Peşə təhsili haqqında» qanunlarda dəyişiklik edilməsi barədə uyğunlaşdırma xarakteri daşıyan qanun layihələrinə də baxılıb və Milli Məclisin plenar iclasına tövsiyə olunub.

# Babək rayonunun Kültəpə kəndində yeni həkim ambulatoriyası istifadəyə verilib

**Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Kültəpə kəndində aparılmış abadlaşdırma və infrastrukturun təzələnməsi işləri çərçivəsində yeni tikilmiş həkim ambulatoriyasının açılışı olub.**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib, tibbi xidmətin təşkili ilə maraqlanıb.

Bildirilib ki, lazımi tibbi avadanlıqlar və cihazlarla təchiz edilmiş Kültəpə Həkim Ambulatoriyasında 8 xidməti otaq, o cümlədən stomatoloq, doğuş, fizioterapiya, qeydiyyat otaqları və aptek vardır. Elektron qeydiyyat sistemindən istifadə gələcəkdə icbari tibbi sığortanın tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır.

Tibb bacısı Hürrü Həsənova yaradılan şəraitin tibbi xidmətin yüksək səviyyədə təşkilinə imkan verəcəyini bildirib, kollektiv adından minnətdarlıq edib.



Ali Məclisin Sədri səhiyyə xidmətinin keyfiyyətinin artırılması, eyni zamanda, həkim briqadalarının kəndə göndərilməsi, yaş qruplarına görə qeydiyyat aparılması, uşaqların və hamilə qadınların sağlamlığına ciddi diqqət yetirilməsi barədə tapşırıqlar verib.

# Bakıda Avrasiya cərrah və qastroenteroloqlarının XVIII Beynəlxalq konqresi

**Azərbaycan Tibb Universitetində (ATU) Cərrah və Qastroenteroloqların Beynəlxalq Avrasiya Elmi Cəmiyyətinin XVIII Beynəlxalq konqresi keçirilib.**

Azərbaycan Cərrah və Qastroenteroloqlar Assosiasiyasının sədri, akademik Böyükkişi Ağayevin əziz xatirəsinə həsr olunan toplantıya Cərrah və Qastroenteroloqların Beynəlxalq Avrasiya Elmi Cəmiyyətinə üzv olan 25 ölkədən (Türkiyə, Rusiya, Avstraliya, ABŞ, İspaniya, Hollandiya və s.) elm xadimləri və tibb mütəxəssisləri, eləcə də ölkəmizin tibb ictimaiyyətinin nümayəndələri qatılıblar.




Tədbirdə Səhiyyə nazirinin müavini Elsevər Ağayev Səhiyyə naziri Oqtay Şirəliyevin konqres iştirakçılarına təbrik məktubunu oxuyub. Nazir müavini çıxışında son 15 ildə Azərbaycanın səhiyyə sahəsində qazandığı uğurlardan danışıb. Diqqətə çatdırılıb ki, bu il konqresin materiallarında 31 ölkədən 600-ə qədər məqalə və tezislər dərc olunub.

Toplantıda çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli bildirib ki, bir çox beynəlxalq əhəmiyyətli tədbirlərin ölkəmizdə keçirilməsi artıq ənənə halını alıb. Bu, Azərbaycanın bütün sahələrdə, o cümlədən səhiyyədə əldə etdiyi uğurlarla bağlıdır. Diqqətə çatdırılıb ki, bu beynəlxalq tədbirdə cərrahiyyə və qastroenterologiya sahələrində yeniliklərlə bağlı dinləniləcək məruzələr, aparılacaq müzakirələr ölkələr arasında elmin qarşılıqlı tanınmasında və əlaqələrin qurulmasında böyük əhəmiyyət daşıyır.

Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov bildirib ki, beynəlxalq konqresin ölkəmizdə keçirilməsində akademik Böyükkişi Ağayevin böyük rolu olub. Diqqətə çatdırılıb ki, Azərbaycanda tibb elminin yeni biliklərlə zənginləşdirilməsi və tədrisində tanınmış alimin xüsusi rolu və əməyi var. Respublikada cərrahi qastroenterologiya elmi məktəbinin yaradıcılarından olan Böyükkişi Ağayevin dəyərli tədqiqatları bu istiqamətdə fundamental araşdırmaların aparılması və onların müalicə işində tətbiqi üçün geniş imkanlar açıb. Alim eksperimental nəticələr əsasında təcrübi tövsiyələri və ixtiraları ilə tibb elminə təqdirəlayiq töhfələr verib. «Bu gün Azərbaycan mühüm konfrans və forumların mərkəzinə çevrilib. Beynəlxalq konqresin ölkəmizdə 7-ci dəfə keçirilməsi səhiyyə ictimaiyyəti adına çox mühüm hadisədir. Tədbirdə dünyanın tanınmış mütəxəssisləri iştirak edirlər. Təəssüflər olsun ki, bugünkü konqresi Böyükkişi Ağayevsiz keçiririk. Bu konqresin akademikin xatirəsinə həsr olunması onun ən böyük haqqıdır».

Konqresdə Cərrah və Qastroenteroloqların Beynəlxalq Avrasiya Elmi Cəmiyyətinin sədri, Ankara Universitetinin rektoru, professor Hasan Özkan çıxış edərək, dost və qardaş Azərbaycana xüsusi önəm verdiklərini diqqətə çatdırıb. Qeyd edib ki, Cəmiyyətin indiyədək 17 konqresi keçirilib. Bu beynəlxalq tədbirlərin 7-nə Azərbaycan ev sahibliyi edib. H.Özkan məlumat verib ki, rəhbərlik etdiyi cəmiyyətin əsası 1996-cı ildə Antalyada Avropa və Asiyanın türkdilli dövlətlərindən olan alimlərin milli konqresindəki görüşü zamanı qoyulub. Cərrah və qastroenteroloqların ilk konqresi 1997-ci ildə Bakıda keçirilib. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dəstəyi ilə təşkil olunan həmin konqresdə 5 ölkədən 35-ə yaxın alim iştirak edib.

Konqresin sədri, Azərbaycan Cərrah və Qastroenteroloqlar Assosiasiyasının sədri, professor Rauf Ağayev bildirib ki, tədbirdə 150-yə yaxın mühazirə və elmi çıxışlar dinləniləcək. Diqqətə çatdırılıb ki, beynəlxalq konqresdə Avstraliya, ABŞ, Türkiyə və başqa ölkələrdən gələn tanınmış mütəxəssislər qaraciyər transplantasiyasına aid öz təcrübələri haqqında danışacaqlar. Eyni zamanda, dünyada ən aktual problemlərdən olan hepatit virusu, ürək-damar cərrahiyyəsi barədə də çıxışlar nəzərdə tutulub.

Tədbirdə Böyükkişi Ağayevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Sonra Cərrah və Qastroenteroloqların Beynəlxalq Avrasiya Elmi Cəmiyyətinin XVIII Beynəlxalq konqresi işini sessiyalarda davam etdirib. Dördgünlük forumun sessiyalarında cərrahiyyə və qastroenterologiya sahəsindəki son vəziyyət, mövcud problemlər və yeniliklər barədə müzakirələr aparılıb.

Bölmə iclaslarından biri ATU-nun Tədris Cərrahiyyə Klinikasında keçirilib və ürək-damar cərrahiyyəsinə həsr edilib. Toplantıda çıxış edən Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin sədri, professor Kamran Musayev bu cür beynəlxalq konqreslərin ölkəmizdə təşkil olunmasının iki cəhətdən əhəmiyyətli olduğunu vurğulayıb: «Birincisi, bizim dünyada olan inkişafdan, irəliləyişlərdən xəbərdar olmağımız üçün belə toplantılarda iştirakımız vacibdir. İkincisi isə, bu cür tədbirlərin keçirilməsi ölkəmizdə səhiyyənin inkişafını nümayiş etdirir».

K.Musayev ölkə cərrahiyyəsində özünəməxsus yer tutan Akademik M.A.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzinin həm böyüklərdə, həm də uşaqlarda ürək cərrahiyyəsini çox uğurla davam etdirdiyini söyləyib, bundan sonra da Mərkəzin elmi və praktiki fəaliyyətlərdə yeni nailiyyətlərə imza atacağına əminliyini bildirib. Beynəlxalq konqresdə ürək-damar cərrahiyyəsinə geniş yer ayrıldığına görə təşkilatçılara təşəkkür edib.

Sonra yerli və xarici mütəxəssislərin ürək-damar cərrahiyyəsinin aktual problemlərinə dair məruzələri dinlənilib. Mütəxəssislər konfrans iştirakçılarının ayrı-ayrı mövzularla əlaqədar çoxsaylı suallarını da cavablandırıblar.

Konqresin «Plastik və rekonstruktiv cərrahiyyə» adlanan sessiyasında Azərbaycan Plastik Cərrahlar İctimai Birliyinin sədri, professor Vaqif Qələndərli ölkəmizin bu cür beynəlxalq tədbirlərə ev sahibliyi etməsinin ənənə halını aldığını qeyd edib, bildirib ki, dünyanın qabaqcıl mütəxəssislərinin nəzəri və praktiki təcrübələrini bu cür tədbirlərdə paylaşması Azərbaycanda səhiyyənin inkişafının bariz nümunəsidir.

Bölmə iclasında plastik və rekonstruktiv cərrahiyyə üzrə aktuallıq kəsb edən 25 mövzuya dair məruzələr dinlənilib, müzakirələr aparılıb və iştirakçıların sualları cavablandırılıb.

# Həkimləri Təkmilləşdirmə İnstitutunun təqvim planında yeniliklər

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda (ADHTİ) səhiyyə sisteminin modernləşdirilməsi və innovasion inkişafı şəraitində istifadə edilən tibbi texnologiyaların, müasir diaqnostika, müalicə, profilaktika və reabilitasiya metodlarının kliniki, sosial və iqtisadi səmərəliliyini təmin edə bilən tibbi kadrlar hazırlanması istiqamətində işlər aparılır. Bunlardan biri də peşə hazırlığı kurslarının davamlı tibb təhsili sistemi prinsiplərinə uyğunlaşdırılmasıdır. Bu məqsədlə yeni tədris ili üçün İnstitutun Səhiyyə Nazirliyi tərəfindən təsdiq olunmuş təqvim planında bir sıra yeniliklər edilib, oraya müasir informasiya və təhsil texnologiyalarına əsaslanan ixtisasartırma kursları daxil edilib.



Bu il üçün təsdiq olunmuş təqvim planı ilk dəfə olaraq 1,5 il üçün nəzərdə tutulub. Eyni zamanda, kursların sayı artırılıb, müddəti davamlı tibb təhsili proqramına uyğun optimallaşdırılıb, mövzu çeşidi genişləndirilib, yaxın ixtisaslara aid kurslar təşkil olunub. Bu barədə məlumatlar, həmçinin tematik kursların mövzuları Səhiyyə Nazirliyinin saytında yerləşdirilib.

Yeni tədris ilində də tədris prosesində modul sistemindən istifadə ediləcək. İş yerində ixtisaslaşma keçmək istəyən həkimlər üçün də şərait yaradılacaq. Bunun üçün belə arzusu olan həkimlərin çalışdıqları müəssisədən institut rəhbərliyinə müraciət göndərilməlidir.

Yeniliklərdən biri də odur ki, 2019/2020-ci tədris ilində 5 və 8 günlük kurslarla yanaşı, 1 və 2 günlük seminar-treninqlərin də təşkili nəzərdə tutulub.

Sentyabr ayında artıq bu qəbildən ilk seminar keçirilib. ADHTİ-nin Yoluxucu xəstəliklər kafedrası tərəfindən təşkil olunmuş, bruselyoz mövzusunda ilk seminarda iştirak edən həkim-infeksionistlər, həkim-pediatrlar və həkim-terapevtlər bu xəstəliyin müasir diaqnostikası və müalicəsi məsələləri haqqında tam məlumatlandırılıblar. Seminar iştirakçılarına davamlı tibb təhsili üzrə kredit yığıldığını göstərən müvafiq sertifikatlar verilib.

Cari tədris ilində institutun bütün kafedralarında 1 və 2 günlük seminar-treninqlərin keçirilməsi nəzərdə tutulub.

# Lənkəranda stomatoloqlar üçün səyyar kurs təşkil edilib

**Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrası Davamlı Tibbi Təhsil proqramına uyğun olaraq Lənkəran Rayon Mərkəzi Xəstəxanasında stomatoloqlar üçün səyyar kurs təşkil edib.**



Lənkəran şəhəri ilə yanaşı, yaxın bölgələrdən olan həkim-stomatoloqların da iştirak etdiyi ongünlük kursun əsas məqsədi müdavimləri stomatologiyanın aktual məsələləri ilə tanış etməkdən, onların dişlərin və diş əti sağlamlığının qorunub saxlanmasına, ağız boşluğu xəstəliklərinin erkən aşkarlanmasına dair bilik və praktik bacarıqlarını təkmilləşdirməkdən ibarət olub.

ADHTİ-nin Stomatologiya və üz-çənə cərrahiyyəsi kafedrasının dosentləri Cavid Əhmədbəyli və Rəhim Qarayev tərəfindən aparılan dərslərdə stomatoloji xəstələrdə dişlər və implantlar ətrafında diş əti xəstəlikləri haqqında ictimai məlumatlılığı artırmaq, hamiləlik, şəkərli diabet və ürək-damar xəstəlikləri zamanı qarşıya çıxan problemləri həll etmək yolları araşdırılıb.

**Beynəlxalq Pediatriya Assosiasiyasının 17-ci Avrasiya Konqresi və Türk Dünyası Pediatriya Konqresi Bakıda təşkil olunub.**

# Bakıda Beynəlxalq Pediatriya Assosiasiyasının 17-ci Avrasiya Konqresi və Türk Dünyası Pediatriya Konqresi keçirilib




Tədbirin açılış mərasimində **Azərbaycan Tibb Universitetinin I Uşaq xəstəlikləri kafedrasının dosenti Nigar Sədiyeva** konqres haqqında məlumat verərək bildirib ki, toplantıda 300-ə yaxın iştirakçı, 40-a yaxın ölkədən məruzəçilər iştirak edir. Konqres çərçivəsində 17 müxtəlif interaktiv panel, sözlü, poster və məruzə panelləri, 2 konfransın keçirilməsi planlaşdırılıb.

**Beynəlxalq Pediatriya Assosiasiyasının prezidenti Ənvər Həsənoğlu** son illər dünyadakı əsas problemlərdən birinin qaçqın və məcburi köçkün problemi olduğunu qeyd edib, uşaqların və körpələrin bundan çox əziyyət çəkdiyini xüsusi vurğulayıb. Assosiasiyanın prezidenti bildirib: «Dünyada təqribən səkkiz milyard əhali var, onların 25 faizini uşaqlar təşkil edir. Müxtəlif ölkələrdə uşaqların fərqli problemləri var. Aclıqdan, infeksion xəstəliklərdən əziyyət çəkən, qaçqın həyatı yaşayan körpələr var. Həmin uşaqlara kömək etmək üçün hər birimiz daha çox işləməliyik. Bu baxımdan, əldə olunan nailiyyətləri bölüşmək, təcrübəmizi paylaşmaq üçün belə tədbirlər böyük əhəmiyyətə malikdir».

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin aparat rəhbəri, dosent Nadir Zeynalov** ölkəmizdə səhiyyə sahəsində əldə olunan uğurlar, aparılan islahatlar haqqında danışıb. O, Səhiyyə naziri Oqtay Şirəliyevin tədbir iştirakçılarına təbriklərini çatdırıb, konqresin işinə uğurlar arzulayıb.

**K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun direktoru, Səhiyyə Nazirliyinin pediatriya üzrə baş mütəxəssisi, Türk Dünyası Pediatriya Birliyinin prezidenti, professor Nəsib Quliyev** bu konqresi «uşaq həkimlərinin bayramı» adlandırıb, bildirib ki, 17 konqresdən beşinin Bakıda keçirilməsi Azərbaycan səhiyyəsinin və həkimlərinin uğurunun göstəricisidir. Professor deyib ki, konqresdə uşaqların sağlamlığı ilə əlaqədar sosial problemlər də müzakirə olunur. Baş pediatr tədbirdə aparılacaq müzakirələrlə uşaqların sağlamlığı ilə bağlı problemlərin həllinə doğru böyük addımlar atılacağına inandığını qeyd edib.



**Azərbaycan Tibb Universitetinin elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov** konqresin pediatriyanın bütün sahələrini əhatə etdiyini vurğulayıb, mütəxəssislərin məruzələrinin və aparılacaq müzakirələrin pediatriyanın inkişafına töhfə verəcəyinə əminliyini bildirib.

Digər çıxış edənlər tədbirin əhəmiyyətindən danışıb, konqresin işinə uğurlar arzulayıblar.

Konqres yerli və xarici məruzəçilərin müxtəlif mövzularda məruzələri ilə davam edib.

Qeyd edək ki, Beynəlxalq Pediatriya Assosiasiyasının, Azərbaycan Tibb Universitetinin, Türkiyə Milli Pediatriya Dərnəyinin təşkilatçılığı ilə baş tutan tədbir uşaqların sağlamlığına dair mövcud problemləri aşkarlamaq və onların həlli yollarını tapmaq üçün müxtəlif ölkələrdə fəaliyyət göstərən pediatrlar arasında elmi əlaqələrin genişləndirilməsi məqsədi daşıyıb.

# Ölkəmiz malyariyanın eliminasiyasının sertifikatlaşdırılması üçün ÜST-yə müraciət edib

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, malyariya parazitar xəstəliklər içərisində çox geniş yayılıb və dünya əhalisinin 41 faizdən çoxu ona yoluxma riski altında yaşayır. Hər il dünyanın 100-dən çox ölkəsində orta hesabla 300-500 milyon nəfər həmin xəstəliyə yoluxur və il ərzində 1,5-2,7 milyon nəfər malyariyanın qurbanına çevrilir.



Azərbaycanda keçən əsrin 90-cı illərinin əvvəllərində sosial-siyasi vəziyyətin pisləşməsi, əhali arasında xaotik miqrasiyanın, 1 milyondan çox qaçqın və məcburi köçkünün olması nəticəsində malyariya xəstəliyi geniş miqyasda yayılaraq, ölkə ərazisinin 80 faizini əhatə edib.

O zaman epidemioloji vəziyyətlə əlaqədar ÜST-nin tövsiyələrinə müvafiq olaraq Milli Proqram hazırlanıb. Onun uğurla həyata keçirilməsi nəticəsində epidemiyanın genişlənməsinin qarşısı alınıb, xəstələnmə səviyyəsi ilbəil azalmağa başlayıb. Aparılan kompleks əks-epidemik tədbirlər sayəsində ölkəmizdə malyariyanın eliminasiyasına nail olunub və 2013-cü ildən etibarən ona yoluxma halları müşahidə edilməyib.

Malyariyaya yoluxma hallarının kəsilməsinə nail olan ölkələr xəstəliyin eliminasiyasının sertifikatlaşdırılması üçün ÜST-yə müraciət edirlər. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən də bu quruma müraciət olunub və müsbət rəy alınıb.

Bu günlərdə sertifikasiya prosesinə hazırlığın təmin edilməsi və gələcəkdə Beynəlxalq Sertifikasiya Komissiyası ilə səmərəli əməkdaşlıq etmək məqsədilə aidiyyətli dövlət qurumlarının mütəxəssislərindən ibarət Sertifikasiya Komitəsinin birinci toplantısı keçirilib.

Qeyd edək ki, malyariyadan azad ölkə kimi sertifikatlaşdırma prosesi dövlət və beynəlxalq səviyyədə ciddi rezonansa səbəb olur. Onun nəticəsi turizmin, biznesin, qarşılıqlı tələbə mübadiləsinin və bir çox digər sahələrin inkişafına öz təsirini göstərir.

# Ukraynalı kardioloqlar ATU-da təhsil sistemi ilə tanış olublar

**Ukrayna Uşaq Kardioloji Mərkəzinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetinin (ATU) qonağı olub.**



Mərkəzin direktoru, uşaq kardiocərrahı, professor İlya Yemets səfərin məqsədi haqqında məlumat verib, qeyd edib ki, Azərbaycanda tibb təhsilinin strukturu ilə tanış olmaq, ATU-da mövcud tədris sistemini öyrənmək, faydalı təcrübələri Ukraynada tətbiq etmək niyyətindədirlər.

Professor Ukraynada tibbi sığorta sisteminin tam tətbiq olunmadığını bildirib və bu sahədə mövcud problemlərdən danışıb. Qonaq gələcəkdə ATU ilə qarşılıqlı əlaqələrin gücləndirilməsinin, ortaq layihələrin icrasının tərəfdarı olduğunu diqqətə çatdırıb.

Görüşdə ATU-nun rektoru, professor Gəray Gəraybəyli rəhbərlik etdiyi ali məktəbdə tətbiq olunan iki pilləli təhsil sistemi - 6 illik baza təhsili və seçilən ixtisasdan asılı olaraq 3-5 illik rezidentura haqqında məlumat verib. Bildirib ki, ATU-nun bir çox xarici ölkə universitetləri ilə qarşılıqlı əməkdaşlığa dair sazişləri var. Rektor ATU-da son dövrlər həyata keçirilən islahatlar, elektron universitet sisteminin tətbiqi və digər məsələlər barədə ətraflı məlumat verib, həmçinin tibbi sığorta ilə bağlı məsələnin müzakirəsi zamanı Azərbaycanda gələn ildən tətbiq olunacaq yeni qaydalarla da qonağı tanış edib.

Sonda tərəflər arasında qarşılıqlı əməkdaşlığın istiqamətlərinin müzakirəsi məqsədilə növbəti görüşlərin keçirilməsinə dair ilkin razılıq əldə olunub.

Ukrayna Uşaq Kardioloji Mərkəzinin nümayəndə heyəti həmçinin ATU-nun Tədris Cərrahiyyə Klinikasında olub. Klinikanın şöbələri, burada yaradılan şəraitlə yaxından tanış olan qonaqlar tələbələrin Treninq Mərkəzini də ziyarət ediblər. Onlara Mərkəzdə həyata keçirilən layihələr haqqında geniş məlumat verilib.

Klinikanın direktoru, professor Surxay Hadıyev Tədris Cərrahiyyə Klinikasının universitet xəstəxanası olaraq məqsəd və hədəfləri, müalicə və elmtədris istiqamətindəki fəaliyyəti, əldə olunan uğurlar, gələcəkdə nəzərdə tutulan planlar haqqında qonaqlara geniş məlumat verib.

Görüşdə klinikanın baş həkimi, professor Ramiz Poluxov, II Mamalıq-ginekologiya kafedrasının müdiri, professor Hicran Bağırova və klinikanın pediatrik-invaziv kardioloqu Elşən Rzayev iştirak ediblər.

# Bilik Günü qeyd olundu

**Yeni dərs ilinin başlanması münasibətilə Azərbaycanın bütün təhsil ocaqlarında olduğu kimi, tibb təhsili müəssisələrində də Bilik Günü qeyd olunub.**

## Bu il 25 prezident təqaüdçüsü ATU-nu seçdi

Azərbaycan Tibb Universitetində (ATU) bu münasibətlə



universitetin professor-müəllim heyətinin, tələbələrin və valideynlərin iştirakı ilə təntənəli mərasim keçirilib. Toplantıda ATU-nun rektoru, professor Gəray Gəraybəyli çıxış edərək, tələbələri yeni tədris ili münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb. G.Gəraybəyli qeyd edib ki, Azərbaycanda elmi biliklərin, təhsil sisteminin, səhiyyənin ardıcıl inkişafı Prezidentin uzaqgörən siyasətinin tərkib hissəsini, əsas özəyini təşkil edir: «Hazırda ölkəmizdə səhiyyə sahəsində əldə olunan nailiyyətlərdə ATU-nun müəllim və professor heyətinin elmi axtarışlarının və gərgin əməyinin xüsusi rolu var. Məzunlarımızın sorağı dünyanın müxtəlif ölkələrindən gəlir ki, bu da çox sevindiricidir». Yeni tələbələri bu böyük ailənin üzvü olması münasibətilə təbrik edən, bu çətin və məsuliyyətli seçimdə onlara uğurlar arzulayan rektor həmçinin universitetin keçdiyi inkişaf yoluna nəzər salıb, onun maddi-texniki bazasının möhkəmləndirilməsində və yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətlərini xatırladıb. Bildirib ki, tibb təhsilinə həmişə diqqət və qayğı ilə yanaşan ulu öndər həkimlərimizin və müəllimlərimizin əməyinə daim yüksək qiymət verib.

Diqqətə çatdırılıb ki, 2019-2020-ci tədris ilində ATU-ya 770 nəfər, o cümlədən Müalicə işi fakültəsinə 483 nəfər, Tibbi-profilaktika fakültəsinə 49 nəfər, Stomatologiya və Əczaçılıq fakültələrinin hərəsinə 68 nəfər qəbul olunub. Bununla yanaşı, 65 nəfər hərbi həkim, 24 nəfər isə hərbi feldşer ixtisasını seçib. Bu il həm də 13 nəfər magistraturaya qəbul olunub. 2019-2020-ci tədris ilində hazırlıq şöbəsini 396 nəfər xarici ölkə vətəndaşı müvəffəqiyyətlə başa vurub.

Sonra ATU-nun Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrasının müdiri, professor Məhbubə Vəliyeva ümummilli lider Heydər Əliyevin elmin və təhsilin inkişafı və təkmilləşdirilməsi istiqamətində əvəzsiz addımlarından danışıb. Bildirilib ki, hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, bütün sahələrdə olduğu kimi, səhiyyə və təhsildə də bütün uğurlar Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın göstərdikləri qayğı nəticəsində əldə edilir.

Qeyd edək ki, bu il Azərbaycan Tibb Universiteti Prezident təqaüdçülərinin sayına görə ölkənin ali təhsil ocaqları arasında birinci olub. Belə ki, bu il ümumilikdə 102 nəfər Prezident təqaüdünə layiq görülüb. Onlardan 25 nəfəri təhsil almaq üçün ATU-nu seçib. Prezident təqaüdçülərinin sayına görə ölkə üzrə ikinci yerdə Bakı Ali Neft Məktəbi (23 nəfər), üçüncü yerdə Azərbaycan Dövlət İqtisad Universiteti (21 nəfər) durur.

Tədbirdə həmin Prezident təqaüdçülərindən biri - qəbul imtahanında ölkə üzrə ən yüksək bal (695) toplayan Təhmin Muradov çıxış edib, Tibb Universitetində yüksək keyfiyyətli təhsil alaraq, daim bu ali təhsil ocağının adını ucaldacağına və müəllimlərinin etimadını doğruldacağına söz verib.

Bilik Gününə həsr olunmuş mərasimdə ATU-nun birinci kurs tələbələri, builki qəbul imtahanında ən yüksək bal toplayan 3 gəncə noutbuk hədiyyə olunub. T.Muradovla yanaşı, Məhəmməd Ağamalıyev (694,3 bal) və Samilə Qədəşova (693 bal) da ATU rəhbərliyi tərəfindən mükafatlandırılıb.

## Tibb müəssisəsində distant təhsil alanlar Bilik Gününü bayram etdilər

B.Eyvazov adına Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunda «Müalicə alan məktəbyaşlı uşaqların distant təhsili» layihəsi çərçivəsində yeni tədris ilinin başlanması münasibətilə Bilik Gününə həsr olunmuş tədbir keçirilib.

Elmi Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru, tibb üzrə fəlsəfə doktoru Zöhrə Əlimirzəyeva öz çıxışında qeyd edib ki, layihə xüsusi ehtiyacı olan uşaqların fasiləsiz və keyfiyyətli ümumi təhsil almaq hüququnu təmin etmək, leykemiya xəstəsi olan uşaqların cəmiyyətə inteqrasiyasına dəstək vermək, onların informasiya-kompüter texnologiyaları biliyinin artırılmasına nail olmaq və potensiallarını nümayiş etdirmək üçün şərait yaratmaq məqsədi daşıyır. Z.Əlimirzəyeva bildirib ki, leykemiyalı uşaqlar il ərzində bir neçə dəfə müalicə olunurlar və həmin dövrdə onların təhsildən kənarda qalmaması üçün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü, Təhsil Nazirliyi və Səhiyyə Nazirliyinin dəstəyi ilə «Nobel-T» şirkətinin həyata keçirdiyi «Müalicə alan məktəbyaşlı uşaqların distant təhsili» layihəsi həmin problemin aradan qaldırılmasına xidmət göstərir. Onun verdiyi məlumata görə, müalicə alan və distant təhsilə qoşulmaq istəyən şagirdlər üçün hər cür şərait yaradılıb, onlara təhsil verilməsi üçün tibb müəssisəsi müvafiq İKT avadanlıqları ilə təmin edilib, müəllim, şagird və valideynlər üçün təlimlər təşkil olunub. Dərslərdə elektron resurslardan, elektron dərsliklərdən və video dərslərdən istifadə edilir.

Tədbirdə Təhsil nazirinin müşaviri Nigar Bağırlı, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov, Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin baş məsləhətçisi Aynurə Zeynalova və başqaları çıxış edərək, layihə çərçivəsində keçilən dərslərlə yanaşı, musiqi, texnologiya və təsviri incəsənət dərslərinin də həm distant, həm də canlı keçirilməsinin uşaqlarda müsbət dəyişikliklərə səbəb olduğunu bildiriblər. Qeyd olunub ki, stasionar xəstələrlə bərabər, eyni fənlər ambulator xəstələrə də tədris edilir və bu onların təhsillərinə müsbət təsir göstərir, analizlərinin cavabını gözləyərkən gərginlik, əsəb yaranmasının qarşısını alır və əhval-ruhiyyəni normal saxlayır.

Sonra təhsildə fərqlənənlərə tərifnamələr və müxtəlif hədiyyələr təqdim olunub.

Yeni dərs ilinin başlandığını bildirən zəng çalınıb.

Tədbir iştirakçıları leykemiyalı xəstələrin əl işlərindən ibarət sərgiyə tamaşa ediblər.



## Seçenov Universitetinin Bakı filialında yeni dərs ili başlandı

İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (Seçenov Universiteti) Bakı filialında Bilik Gününə və yeni dərs ilinin başlanmasına həsr olunan tədbirdə filialın rektoru, professor Əziz Əliyev yeni dərs ilinin başlaması münasibətilə tədbir iştirakçılarını təbrik edib, vurğulayıb ki, Seçenov Universitetinin Bakı filialı Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı əsasında və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılıb. Universitet rəhbərliyinin tələbələrin inkişafına kömək etməyə həmişə hazır olduğunu deyən rektor vurğulayıb ki, filialın müasir klinik bazası daim genişlənir: «İndiyə qədər Rusiya, ABŞ və Almaniyanın aparıcı klinikaları ilə, həmçinin Azərbaycanın tibb müəssisələri ilə müqavilələr bağlanıb. Təhsildə fərqlənən tələbələr praktiki məşğələlər keçmək üçün həmin klinikalara göndəririlir».

Seçenov Universiteti Bakı filialının İctimaiyyətlə əlaqələr və tərbiyəvi iş üzrə prorektoru Andrey Yeryomin Universitetin rektoru Pyotr Qlıboçkonun adından tələbələri təbrik edib.

Təhsil xidmətlərinin ixracı şöbəsinin rəisi Nikita Sokolov öz çıxışında qeyd edib ki, Rusiyanın ən yaxşı ali məktəbində təhsil almaq bu tələbələr üçün nadir imkandır. Universitetin məzunları arasında böyük alimlərin və məşhur insanların bütöv bir nəsli var. Onlardan biri də Azərbaycanın Birinci vitse-prezidenti, Seçenov Universitetinin fəxri professoru Mehriban xanım Əliyevadır.

## Tibb Kollecində Bilik Günü

2 nömrəli Bakı Baza Tibb Kollecində yeni tədris ilinin başlanması münasibətilə I kurs tələbələri üçün təntənəli tədbir keçirilib.

Kollecin direktoru Dilarə Məmmədəliyeva tədbiri açaraq, təhsil müəssisəsinin tarixindən, ölkəmizdə tibb təhsilinin inkişafından danışıb. Milli təhsilimizin inkişafının məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu söyləyən direktor gələcəkdə onun öz zəngin ənənələrinə, milli mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcəyini, dünya təhsil sistemində öz layiqli yerini tutacağını qeyd edib. Tələbələri Bilik Günü münasibətilə təbrik edən D.Məmmədəliyeva onlara müvəffəqiyyətlər arzulayıb.

Tədbir kollec haqqında bədii film və tələbələrin çıxışları ilə tamamlanıb.



# Dünya Ürək Günü qeyd olundu

**1999-cu ildə Ümumdünya Ürək Federasiyası Dünya Ürək Günü keçirmək təşəbbüsü ilə çıxış edib, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və digər mühüm beynəlxalq təşkilatlar bu təşəbbüsü dəstəkləyiblər. 2011-ci ildən bu gün hər il sentyabrın 29-da qeyd olunur.**

Ümumdünya Ürək Federasiyası ÜST ilə əməkdaşlıq çərçivəsində Dünya Ürək Günü münasibətilə 100-dən çox ölkədə tədbirlər - kütləvi sağlamlıq yoxlamaları, ictimai mühazirələr, tamaşalar, elmi forumlar, sərgilər, konsertlər, gəzintilər və idman yarışları keçirir.

Hazırda ürək-damar xəstəlikləri dünyada ölümün və əlilliyin əsas səbəblərindən biri sayılır və hər il 17 milyondan çox insanı həyatdan aparır. Ürək-damar xəstəlikləri və insultun yaranmasının risk amilləri qan təzyiqinin yüksəlməsi, qanda xolesterin və qlükozanın miqdarının artması, siqaret çəkmək, artıq çəki, piylənmə və fiziki hərəkətsizlik, meyvə və tərəvəzlərlə qidalanmanın azlığıdır.

Uşaq və yeniyetmə yaşında formalaşan qeyri-sağlam həyat tərzi ürək-damar xəstəliklərinin inkişafına gətirib çıxaran səbəblərdəndir. Ona görə də xəstəliyin profilaktikasına uşaq vaxtlarından başlamaq lazımdır.



Dünya Ürək Federasiyasının məlumatına görə, sağlam həyat tərzi, tütün istifadəsini məhdudlaşdırmaq, qidalanmanı nəzarətdə saxlamaq və fiziki fəallığı artırmaq hesabına infarkt və insult nəticəsində baş verən erkən ölümlərin 80 faizinin qarşısını almaq olar.

### «Ürəklərimizi birgə qoruyaq»

Azərbaycanın ürək-damar xəstəlikləri üzrə aparıcı müəssisəsi olan Akademik C.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutu Dünya Ürək Günü münasibətilə «Gənclik mall» Ticarət Mərkəzində «Ürəklərimizi birgə qoruyaq» adlı aksiya keçirib.

İnsanların tibbi anlayışının artırılması və maarifləndirilməsi məqsədi daşıyan aksiya zamanı institutun əməkdaşları ürək-damar xəstəliklərinin profilaktikasına dair tövsiyələr, bu xəstəliklərinin risk amillərinin azaldılmasına yönəldilən ilkin profilaktik müayinələr, onların aparılması üçün tələb olunan göstəricilər haqqında məlumat veriblər. Eyni zamanda, bukletlər paylanılıb, müraciət edənlərin arterial qan təzyiqi, mərkəzi aortal təzyiqi ölçülüb, qanda şəkərin və xolesterinin səviyyəsi ekspres üsulla təyin edilib. Problemi olan şəxslərə həkimlər müvafiq məsləhətlər veriblər.

### Dünya Ürək Günü ilə əlaqədar sosial aksiya

Azərbaycan Ürək-Damar Cərrahiyyəsi Cəmiyyəti Dünya Ürək Günü ilə bağlı bir neçə sosial aksiya və elmi konfrans təşkil edərək, ürək sağlamlığının vacibliyinə diqqət çəkib.

«Park Bulvar» Ticarət Mərkəzində keçirilən aksiya zamanı Mərkəzi Klinik Xəstəxananın həkim briqadası tərəfindən ödənişsiz əsaslarla insanların qan təzyiqi, qanda şəkərin, xolesterinin miqdarı ölçülüb, ürək-damar xəstəliklərindən qorunmağın yolları haqqında məsləhətlər verilib.

Digər bir sosial aksiya isə Bilgəhdə keçirilib. Mərkəzi Klinik Xəstəxananın həkim briqadası tərəfindən Bilgəh qəsəbəsində yerləşən pensiya yaşına çatmışlar üçün sosial xidmət müəssisəsində məskunlaşan ahıllar müayinədən keçirilib, onlar üçün müalicə kursu təyin edilib. Aksiyaya dəstək verən "KRKA" şirkəti ahılların lazımi dərman preparatları ilə təmin olunmasını təşkil edib.

Dünya Ürək Günü ilə əlaqədar keçirilən daha bir tədbir ürək-damar cərrahları, rezidentlər və gənc həkimlərin iştirak etdiyi elmi-praktiki konfrans olub. Toplantıda Dünya Ürək Gününün əhəmiyyəti vurğulanıb, ürək sağlamlığında aktual mövzular ətrafında çıxışlar edilib, müzakirələr aparılıb.

## Sentyabrda ilansancma ilə əlaqədar Kliniki Tibbi Mərkəzə 4 müraciət olub

**«İsti günlər arxada qalsa da, hələ də ara-sıra şöbəyə ilansancma ilə əlaqədar müraciətlər olur. Sentyabr ayında şöbəmizə belə hadisələrlə bağlı 4 müraciət daxil olub». Bu barədə Bakı şəhər Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin müdiri Azər Maqsudov məlumat verib.**

Onun sözlərinə görə, Toksikologiya şöbəsinə ilansancma ilə əlaqədar apreldə 6, mayda 21, iyunda 29, iyulda 24, avqustda isə 12 müraciət daxil olub. Zərərçəkənlərin 14 nəfəri uşaq olub. Həmçinin 27 nəfər əqrəb, 14 nəfər qaraqurd sancması ilə əlaqədar müalicə alıb. Onların hamısı müalicə edilərək sağalıb və evə yola salınıb.

A.Maqsudov bildirib ki, ilan, əqrəb və qaraqurd sancması ilə əlaqədar paytaxtda müalicə alanlar arasında ölüm halları baş verməyib. Lakin, təəssüf ki, regionlarda həmin hadisələrdən zərərçəkənlər arasında ölüm hadisəsi qeydə alınıb.

# Dünya dövlətləri tibbin hamı üçün əlçatan olacağına söz veriblər

**Birləşmiş Millətlər Təşkilatının (BMT) mənzil-qərargahında qurumun Baş Məclisinin səhiyyə xidmətləri ilə tam əhatə olunma məsələsi üzrə yüksək səviyyəli iclası keçirilib. Dövlət başçılarının, aparıcı siyasi xadimlərin, səhiyyə sahəsində liderlərin, səhiyyə xidmətləri ilə hərtərəfli əhatə siyasətini formalaşdıran şəxslərin toplaşdığı, «Səhiyyə xidmətləri ilə hərtərəfli əhatə: daha sağlam dünya yaradılması üzrə birgə səylər» mövzusuna həsr edilmiş tədbirdə qaldırılan problem və hədəfə nail olma yolları fəal müzakirə edilib.**

Səhiyyə xidmətləri ilə hərtərəfli əhatə o deməkdir ki, dünyada bütün insanlar zəruri tibbi yardıma ehtiyac yaranan vaxt və həmin yerdə bu cür yardımdan istifadə etmək imkanına malik olsunlar və bununla əlaqədar maliyyə çətinlikləri ilə üzləşməsinlər. İlkin tibbi-sanitar yardımın möhkəm təməlinə əsaslanan səhiyyə xidmətləri ilə hərtərəfli əhatə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) mühüm prioritetlərindən və üçüncü minilliyin hədəflərindən biridir. ÜST bu quruma üzv dövlətlərlə, tərəfdaşlar və digər maraqlı tərəflərlə sıx əməkdaşlıq edərək, bütün dünyada səhiyyə xidmətləri ilə hərtərəfli əhatənin sürətləndirilməsində ölkələrə yardım göstərir.

İclasda ÜST-yə üzv-dövlətlər səhiyyə sahəsinə davamlı investisiyaları təmin etməklə bağlı maliyyə və siyasi öhdəliklər götürüblər. Əsas səhiyyə xidmətlərindən istifadə imkanı, ixtisaslı səhiyyə kadrlarının yetişdirilməsi, maliyyə risklərindən müdafiə, təhlükəsiz, keyfiyyətli, səmərəli və qiymət baxımından münasib dərman vasitələri və vaksinlər müzakirə edilib.

İclasda səhiyyə xidmətləri ilə hərtərəfli əhatə haqqında siyasi Bəyannamə şəklində yekun sənəd qəbul olunub. Üzv-dövlətlər tibbin hamı üçün əlçatan olmasını hədəf götürərək, ilkin tibbi-sanitariya yardımına xərclərin ümumi daxili məhsulun bir-iki faizi həcmində artıracaqlarına söz veriblər.

Toplantıda BMT-nin Baş katibi Antonio Quterreş və ÜST-nin rəhbəri Tedros Adhanom Gebreyesus bu Bəyannaməni səhiyyə sahəsində ən mühüm nailiyyətlərdən biri adlandırıblar.

BMT Baş katibinin sözlərinə görə, yeni Bəyannamə yoluxucu xəstəliklərə, o cümlədən İİV/QİÇS, vərəm və malyariyaya qarşı mübarizədə nailiyyətlərin əldə olunmasına şərait yaradacaq. Sənəd, eyni zamanda, xroniki xəstəliklərin yükünün azaldılması üçün təməl rolunu oynayacaq. Bəyannamədə reproduktiv sağlamlıq sahəsində xidmətlərə planet sakinlərinin ümumi əlçatanlığının bərabər təmin olunmasının zəruriliyi barədə danışılır, qadınların sağlamlığının müdafiəsi üzrə bir sıra tədbirlər nəzərdə tutulur. Ən əsası - yeni sənəddə söhbət tibbə, ilk növbədə, ilkin tibbi-sanitariya yardımına olan xərclərin vacibliyindən gedir.

«Əgər biz ümumi tibbi xidmətə nail olmağa və insanların həyatını yaxşılaşdırmağa köklənmişiksə, o zaman ilkin tibbi-sanitariya yardımına ən ciddi nəzər yetirməliyik», - deyə ÜST-nin Baş direktoru Tedros Adhanom Gebreyesus bəyan edib.

Onun sözlərinə görə, həm ölkə daxilində, həm də ölkələr arasında ədalətsizliyə və yolverilməz qeyri-bərabərliyə son qoymağın vaxtı çatıb. Hazırda dünya əhalisinin 50 faizi keyfiyyətli və münasib qiymətə tibbi yardım almaq imkanından məhrumdur. Hər il tibbi xidmətlərə ciblərindən pul xərcləmək zərurəti ucbatından 100 milyonlarla insan dilənçi vəziyyətinə düşür. 925 milyon insan tibbə ailə büdcəsindən 10 faizdən çox xərclə-



yir, 200 milyon nəfər isə öz gəlirinin 25 faizini bu xərclərə sərf edir. Bununla yanaşı, tibbi yardıma ödəmələr nəticəsində dilənçi vəziyyətinə düşənlərə əhalinin bütün qrupları arasında rast gəlinir.

Dövlətlər həmçinin ixtisaslı tibb işçilərinin ciddi çatışmazlığının öhdəsindən gələcəklərinə söz veriblər.

